Azərbaycan Respublikası
Nazirlər Kabinetinin 2026-cı il
“ 7 ” yanvar tarixli
2 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

**Müxtəlif səbəblərdən təhsilin hər hansı pilləsini və səviyyəsini başa vurmayan şəxslərə arayışın verilməsi**

**Q A Y D A S I**

**1. Ümumi müddəalar**

1.1. Bu Qayda “Təhsil haqqında” Azərbaycan Respublikası Qanununun 27.3-cü maddəsinə uyğun olaraq hazırlanmışdır və təhsilin hər hansı pilləsini və səviyyəsini müxtəlif səbəblərdən başa vurmayan şəxslərə arayışın verilməsi qaydasını tənzimləyir.

1.2. Müxtəlif səbəblərdən təhsilin hər hansı pilləsini və səviyyəsini başa vurmayan şəxslərə “Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi”ndə (bundan sonra – TMİS) “Elektron imza və elektron sənəd haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq elektron sənəd formasında yaradılan arayış verilir.

1.3. Arayışda göstərilən məlumatlar Elektron Hökumət İnformasiya Sistemi (bundan sonra - EHİS) üzərindən təqdim edilə (əldə edilə) bilər. Bu sənədlərdə göstərilən məlumatların EHİS üzərindən təqdim edilməsi həmin sənədlərin təqdim edilməsinə bərabər tutulur.

1.4. Aşağıdakı şəxslər təhsilin hər hansı pilləsini və səviyyəsini başa vurmayan şəxslər hesab edilirlər:

1.4.1. ümumi orta və tam orta təhsil səviyyələri üzrə hər hansı sinfi bitirdikdən sonra təhsilini davam etdirməyən və ya hər hansı dərs ilində dərs məşğələlərində iştirak etmədiyi üçün fənn (fənlər) üzrə biliyi qiymətləndirilməyən, yaxud yekun attestasiyada iştirak etməyən ümumi təhsil pilləsinin müvafiq səviyyələrini başa vurmamış şəxslər;

1.4.2. peşə təhsili pilləsinin hər hansı səviyyəsi üzrə müvafiq ixtisasın təhsil proqramında nəzərdə tutulan tələbləri yerinə yetirməyən və ya yüksək texniki peşə təhsili səviyyəsinə uyğun tədris proqramı üzrə tələb olunan kredit miqdarını tam toplamayan, yaxud ilk peşə və texniki peşə təhsili səviyyəsi üzrə yekun qiymətləndirmədə iştirak etməyən və ya qeyri-müvəffəq qiymət alan, yaxud təhsil müəssisəsindən xaric olunan şəxslər;

1.4.3. orta ixtisas təhsili pilləsinin müvafiq ixtisası üzrə təhsil proqramında nəzərdə tutulan tələbləri yerinə yetirməyən və ya qanunvericiliyə uyğun olmadan təhsil müəssisəsini, ixtisasını, təhsilalma formasını dəyişən və müəssisəyə bərpa olunan və ya diplomunda, yaxud diploma əlavədə göstərilən məlumatlarla onun hüquqi əsasını müəyyən edən sənədləri uyğunsuzluq təşkil edən və ya təhsil müəssisəsindən xaric olunan şəxslər;

1.4.4. ali təhsil pilləsinin bakalavriat (əsas (baza ali) tibb təhsili) və ya magistratura (rezidentura) səviyyəsində müvafiq ixtisas üzrə təhsil proqramı ilə müəyyən edilmiş kreditləri toplamayan və ya qanunvericiliyə uyğun olmadan təhsil müəssisəsini, ixtisasını, təhsilalma formasını dəyişən və müəssisəyə bərpa olunan və ya diplomunda, yaxud diploma əlavədə göstərilən məlumatlarla onun hüquqi əsasını müəyyən edən sənədləri uyğunsuzluq təşkil edən və ya təhsil müəssisəsindən (rezidentura səviyyəsinə münasibətdə ali tibb təhsili və elmi müəssisədən və ya Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi tərəfindən rezidentlərin hazırlanması üçün klinik baza kimi müəyyən edilən tibb müəssisəsindən (bundan sonra - klinik baza)

xaric olunan, eləcə də doktorantura (adyunktura) səviyyəsi üzrə normativ təhsil müddətində dissertasiyanı ilkin müzakirəyə təqdim etməyən və ya fərdi iş planını yerinə yetirməyən şəxslər.

## 2. Ali təhsil pilləsinin hər hansı səviyyəsi üzrə müxtəlif səbəblərdən təhsilini başa vurmayan şəxslərə arayışın verilməsi qaydası

2.1. Arayış ali təhsil pilləsinin hər hansı səviyyəsi üzrə təhsilini başa vurmayan şəxsin EHİS-dəki elektron kabineti üzərindən (bundan sonra – elektron kabinet) müraciəti əsasında 10 (on) iş günü müddətində hazırlanır.

2.2. Elektron ərizə təsdiq edildikdən sonra məlumatların tamlığı 3 (üç) iş günü müddətində TMİS tərəfindən yoxlanılır. Elektron kabinetə məlumatların natamamlığı ("İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 30.5-ci maddəsinin tələbləri nəzərə alınmaqla) və ya uyğunsuzluğu barədə məlumat göndərildikdən sonra ərizəçi 3 (üç) iş günü ərzində onların tamlığını təmin edib təkrar elektron ərizəni təsdiqləməlidir.

2.3. Ərizəçinin müraciətinə aidiyyəti üzrə baxılır və məlumatlar öz təsdiqini tapdığı halda, elektron sənəd formasında yaradılan arayış onun elektron kabinetində yerləşdirilir.

2.4. Ərizədə göstərilən məlumatlar öz təsdiqini tapmadığı halda, arayışın verilməsindən imtina barədə qərar qəbul edilir. İmtina barədə qərar bu Qaydanın 2.8-ci bəndinə əsasən təsdiq edilir və ərizəçinin elektron kabinetində yerləşdirilir.

2.5. Arayış "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 27-ci maddəsinə uyğun olaraq TMİS-ə ötürülən və TMİS-də formalaşan məlumatlar əsasında hazırlanır.

2.6. Arayışda aşağıdakılar göstərilir:

2.6.1. "Azərbaycan Respublikası" sözləri, Azərbaycan Respublikası Dövlət Gerbinin təsviri;

2.6.2. arayışın seriyası və nömrəsi (TMİS tərəfindən verilir);

2.6.3. arayışalanın soyadı, adı və atasının adı;

2.6.4. arayışalanın fərdi identifikasiya nömrəsi (olduğu halda);

2.6.5. arayışalanın (əcnəbi və vətəndaşlığı olmayan şəxslərə münasibətdə) şəxsiyyətini təsdiq edən sənədin adı, seriyası, nömrəsi, verildiyi tarix və sənədi verən orqanın adı;

2.6.6. arayışı verən ali təhsil müəssisəsinin (doktorantura səviyyəsinə münasibətdə ali təhsil müəssisəsinin, klinik bazanın, elmi müəssisə və ya təşkilatın, rezidentura səviyyəsinə münasibətdə isə klinik bazanın) adı;

2.6.7. təhsilalma forması;

2.6.8. ali təhsil pilləsinin səviyyəsi;

2.6.9. ixtisasın (ixtisaslaşmanın) adı;

2.6.10. tədris dili;

2.6.11. arayışalanın arayışı verən ali təhsil müəssisəsinə (doktorantura səviyyəsinə münasibətdə ali təhsil müəssisəsinə, elmi müəssisə və ya təşkilata, rezidentura səviyyəsinə münasibətdə klinik bazaya) qəbul olunduğu il (əmrin nömrəsi və tarixi göstərilməklə)[1];

2.6.12. doktorantura səviyyəsi istisna olmaqla, kreditin qazanılıb-qazanılmadığından asılı olmayaraq arayışalanın tədris planına əsasən semestrlər üzrə (rezidentura səviyyəsinə münasibətdə illər üzrə) dinlədiyi fənlər (rezidentura səviyyəsinə münasibətdə fənlər və rotasiyalar), keçdiyi təcrübələr, yekun dövlət attestasiyası (olduğu təqdirdə), onlara ayrılan kreditlər və aldığı qiymətlər (hərf və balla) və ümumi orta müvəffəqiyyət göstəricisi (bundan sonra - ÜOMG);

2.6.13. doktorantura səviyyəsinə münasibətdə təhsil müddətində verilmiş doktorluq

---

[1] Təhsil müəssisəsini dəyişdirənlərə (bir ali təhsil müəssisəsindən digərinə bərpa olunanlara) münasibətdə təhsilalanın əvvəlki ali təhsil müəssisəsinin (ixtisasın) adı və təhsilinə dair bu Qaydanın 2.6.7-2.6.15-ci yarımbəndlərində qeyd olunan məlumatlar göstərilməklə.

imtahanlarının adları və imtahan qiymətləri;

2.6.14. arayışalanın ali təhsil müəssisəsindən (doktorantura səviyyəsinə münasibətdə ali təhsil müəssisəsindən, elmi müəssisə və ya təşkilatdan, rezidentura səviyyəsinə münasibətdə klinik bazadan) xaric olunduğu il (əmrin nömrəsi və tarixi göstərilməklə);

2.6.15. arayışalanın ali təhsil müəssisəsindən (doktorantura səviyyəsinə münasibətdə ali təhsil müəssisəsindən, elmi müəssisə və ya təşkilatdan, rezidentura səviyyəsinə münasibətdə klinik bazadan) xaric olunma səbəbi;

2.6.16. arayışın verildiyi tarix (il, ay, gün);

2.6.17. arayışın həqiqiliyini yoxlamaq üçün ştrix-kod.

2.7. Arayışda bütün məlumatlar Azərbaycan dilində yazılır. Arayışalanın müraciəti ilə arayış ingilis dilində də tərtib edilə bilər.

2.8. Arayış ali təhsil müəssisəsinin (doktorantura səviyyəsinə münasibətdə ali təhsil müəssisəsinin, klinik bazanın, elmi müəssisə və ya təşkilatın, rezidentura səviyyəsinə münasibətdə klinik bazanın) rəhbərinin təkmil sertifikatlı gücləndirilmiş elektron imzası ilə təsdiq edilir.

2.9. Arayışalan elektron kabinetində yerləşdirilən arayışı elektron qaydada tələb olunan ünvanlara göndərə və ya kağız formasında çap edə bilər.

2.10. Arayışın kağız daşıyıcıda olan surətinin təsdiqi “Notariat haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən həyata keçirilir.

2.11. Arayışın həqiqiliyi “Elektron imza və elektron sənəd haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq yoxlanıla bilər.

## 3. Orta ixtisas təhsili pilləsi üzrə müxtəlif səbəblərdən təhsilini başa vurmayan şəxslərə arayışın verilməsi qaydası

3.1. Arayış orta ixtisas təhsili pilləsini başa vurmayan şəxsin elektron kabineti üzərindən müraciəti əsasında 10 (on) iş günü müddətində hazırlanır.

3.2. Elektron ərizə təsdiq edildikdən sonra məlumatların tamlığı 3 (üç) iş günü müddətində TMİS tərəfindən yoxlanılır. Elektron kabinetə məlumatların natamamlığı (“İnzibati icraat haqqında” Azərbaycan Respublikası Qanununun 30.5-ci maddəsinin tələbləri nəzərə alınmaqla) və ya uyğunsuzluğu barədə məlumat göndərildikdən sonra ərizəçi 3 (üç) iş günü ərzində onların tamlığını təmin edib təkrar elektron ərizəni təsdiqləməlidir.

3.3. Ərizəçinin müraciətinə aidiyyəti üzrə baxılır və məlumatlar öz təsdiqini tapdığı halda, elektron sənəd formasında yaradılan arayış onun elektron kabinetində yerləşdirilir.

3.4. Ərizədə göstərilən məlumatlar öz təsdiqini tapmadığı halda, arayışın verilməsindən imtina barədə qərar qəbul edilir. İmtina barədə qərar bu Qaydanın 3.8-ci bəndinə əsasən təsdiq edilir və ərizəçinin elektron kabinetində yerləşdirilir.

3.5. Arayış “Təhsil haqqında” Azərbaycan Respublikası Qanununun 27-ci maddəsinə uyğun olaraq TMİS-ə ötürülən və TMİS-də formalaşan məlumatlar əsasında hazırlanır.

3.6. Arayışda aşağıdakılar göstərilir:

3.6.1. “Azərbaycan Respublikası” sözləri, Azərbaycan Respublikası Dövlət Gerbinin təsviri;

3.6.2. arayışın seriyası və nömrəsi (TMİS tərəfindən verilir);

3.6.3. arayışalanın soyadı, adı və atasının adı;

3.6.4. arayışalanın fərdi identifikasiya nömrəsi (olduğu halda);

3.6.5. arayışalanın (əcnəbi və vətəndaşlığı olmayan şəxslərə münasibətdə) şəxsiyyətini təsdiq edən sənədin adı, seriyası, nömrəsi, verildiyi tarix və sənədi verən orqanın adı;

3.6.6. arayışı verən orta ixtisas təhsili müəssisəsinin adı;

3.6.7. təhsilalma forması;

3.6.8. ixtisasın adı;

3.6.9. tədris dili;

3.6.10. arayışalanın arayışı verən orta ixtisas təhsili müəssisəsinə daxil olduğu il (əmrin nömrəsi və tarixi göstərilməklə)[2];

3.6.11. kreditin qazanılıb-qazanılmadığından asılı olmayaraq arayışalanın tədris planına əsasən semestrlər üzrə dinlədiyi fənlər, keçdiyi təcrübələr, yekun dövlət attestasiyası (olduğu təqdirdə), onlara ayrılan kreditlər və aldığı qiymətlər (hərf və balla)[3] və ÜOMG;

3.6.12. arayışalanın orta ixtisas təhsili müəssisəsindən xaric olunduğu il (əmrin nömrəsi və tarixi göstərilməklə);

3.6.13. arayışalanın orta ixtisas təhsili müəssisəsindən xaric olunma səbəbi;

3.6.14. arayışın verildiyi tarix (il, ay, gün);

3.6.15. arayışın həqiqiliyini yoxlamaq üçün ştrix-kod.

3.7. Arayışda bütün məlumatlar Azərbaycan dilində yazılır. Arayışalanın müraciəti ilə arayış ingilis dilində də tərtib edilə bilər.

3.8. Arayış orta ixtisas təhsili müəssisəsinin rəhbərinin təkmil sertifikatlı gücləndirilmiş elektron imzası ilə təsdiq edilir.

3.9. Arayışalan elektron kabinetində yerləşdirilən arayışı elektron qaydada tələb olunan ünvanlara göndərə və ya kağız formasında çap edə bilər.

3.10. Arayışın kağız daşıyıcıda olan surətinin təsdiqi “Notariat haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən həyata keçirilir.

3.11. Arayışın həqiqiliyi “Elektron imza və elektron sənəd haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq yoxlanıla bilər.

## 4. Peşə təhsili pilləsinin hər hansı səviyyəsi üzrə müxtəlif səbəblərdən təhsilini başa vurmayan şəxslərə arayışın verilməsi qaydası

4.1. Arayış peşə təhsili pilləsinin hər hansı səviyyəsi üzrə təhsilini başa vurmayan şəxsin elektron kabineti üzərindən müraciəti əsasında 5 (beş) iş günü müddətində hazırlanır.

4.2. Elektron ərizə təsdiq edildikdən sonra məlumatların tamlığı 3 (üç) iş günü müddətində TMİS tərəfindən yoxlanılır. Elektron kabinetə məlumatların natamamlığı (“İnzibati icraat haqqında” Azərbaycan Respublikası Qanununun 30.5-ci maddəsinin tələbləri nəzərə alınmaqla) və ya uyğunsuzluğu barədə məlumat göndərildikdən sonra ərizəçi 3 (üç) iş günü ərzində onların tamlığını təmin edib təkrar elektron ərizəni təsdiqləməlidir.

4.3. Ərizəçinin müraciətinə aidiyyəti üzrə baxılır və məlumatlar öz təsdiqini tapdığı halda, elektron sənəd formasında yaradılan arayış onun elektron kabinetində yerləşdirilir.

4.4. Ərizədə göstərilən məlumatlar öz təsdiqini tapmadığı halda, arayışın verilməsindən imtina barədə qərar qəbul edilir. İmtina barədə qərar bu Qaydanın 4.8-ci bəndinə əsasən təsdiq edilir və ərizəçinin elektron kabinetində yerləşdirilir.

4.5. Arayış “Təhsil haqqında” Azərbaycan Respublikası Qanununun 27-ci maddəsinə uyğun olaraq TMİS-ə ötürülən və TMİS-də formalaşan məlumatlar əsasında hazırlanır.

4.6. Arayışda aşağıdakılar göstərilir:

4.6.1. “Azərbaycan Respublikası” sözləri , Azərbaycan Respublikası Dövlət Gerbinin

---

[2] Təhsil müəssisəsini dəyişdirənlərə (bir orta ixtisas təhsili müəssisəsindən digərinə bərpa olunanlara) münasibətdə təhsilalanın əvvəlki orta ixtisas təhsili müəssisəsinin (ixtisasın) adı və təhsilinə dair bu Qaydanın 3.6.7-3.6.13-cü yarımbəndlərində qeyd olunan məlumatlar göstərilməklə.

[3] Ümumi orta təhsil bazasından qəbul olunanlar üçün əlavə olaraq keçdiyi ümumtəhsil fənləri (qiymət alıb-almamasından asılı olmayaraq), onlara ayrılan saatlar və aldığı qiymətlər.

təsviri;

4.6.2. arayışın seriyası və nömrəsi (TMİS tərəfindən verilir);

4.6.3. arayışalanın soyadı, adı və atasının adı;

4.6.4. arayışalanın fərdi identifikasiya nömrəsi (olduğu halda);

4.6.5. arayışalanın (əcnəbi və vətəndaşlığı olmayan şəxslərə münasibətdə) şəxsiyyətini təsdiq edən sənədin adı, seriyası, nömrəsi, verildiyi tarix və sənədi verən orqanın adı;

4.6.6. arayışı verən peşə təhsili müəssisəsinin adı;

4.6.7. təhsilalma forması;

4.6.8. peşə təhsili pilləsinin səviyyəsi;

4.6.9. ixtisasın adı;

4.6.10. tədris dili;

4.6.11. qəbul olunduğu təhsil bazası (ümumi orta təhsil və ya tam orta təhsil);

4.6.12. arayışalanın arayışı verən peşə təhsili müəssisəsinə daxil olduğu il (əmrin nömrəsi və tarixi göstərilməklə)[4];

4.6.13. arayışalanın dinlədiyi fənlər (modullar), iştirak etdiyi istehsalat təlimi və təcrübəsi, onlara ayrılan saatlar (yüksək texniki-peşə təhsili səviyyəsi üzrə kreditlər), aldığı qiymətlər, yekun attestasiya (olduğu halda) barədə məlumat (iştirak edib-etməməsi, qiymətləndirmə nəticəsi) və ÜOMG (yalnız yüksək texniki-peşə təhsili səviyyəsi üzrə)[5];

4.6.14. arayışalanın peşə təhsili müəssisəsindən xaric olunduğu il (əmrin nömrəsi və tarixi göstərilməklə);

4.6.15. arayışalanın peşə təhsili müəssisəsindən xaric olunma səbəbi;

4.6.16. arayışın verildiyi tarix (il, ay, gün);

4.6.17. arayışın həqiqiliyini yoxlamaq üçün ştrix-kod.

4.7. Arayışda bütün məlumatlar Azərbaycan dilində yazılır. Arayışalanın müraciəti ilə arayış ingilis dilində də tərtib edilə bilər.

4.8. Arayış peşə təhsili müəssisəsinin rəhbərinin təkmil sertifikatlı gücləndirilmiş elektron imzası ilə təsdiq edilir.

4.9. Arayışalan elektron kabinetində yerləşdirilən arayışı elektron qaydada tələb olunan ünvanlara göndərə və ya kağız formasında çap edə bilər.

4.10. Arayışın kağız daşıyıcıda olan surətinin təsdiqi "Notariat haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən həyata keçirilir.

4.11. Arayışın həqiqiliyi "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq yoxlanıla bilər.

## 5. Ümumi təhsil pilləsinin hər hansı səviyyəsi üzə müxtəlif səbəblərdən təhsilini başa vurmayan şəxslərə arayışın verilməsi qaydası

5.1. Arayış ümumi təhsil pilləsinin hər hansı səviyyəsi üzrə təhsilini başa vurmayan şəxsin və ya onun valideyninin, yaxud digər qanuni nümayəndəsinin elektron kabineti üzərindən müraciəti əsasında 5 (beş) iş günü müddətində hazırlanır.

5.2. Elektron ərizə təsdiq edildikdən sonra məlumatların tamlığı 3 (üç) iş günü ərzində TMİS

[4] Təhsil müəssisəsini dəyişdirənlərə (bir təhsil müəssisəsindən digərinə bərpa olunanlara) münasibətdə təhsilalanın əvvəlki peşə təhsili müəssisəsinin (ixtisasın) adı və təhsilinə dair bu Qaydanın 4.6.7-4.6.15-ci yarımbəndlərində qeyd olunan məlumatlar göstərilməklə.

[5] Ümumi orta təhsil bazasından qəbul olunanlar üçün əlavə olaraq keçdiyi ümumtəhsil fənləri (qiymət alıb-almamasından asılı olmayaraq), onlara ayrılan saatlar və aldığı qiymətlər.

tərəfindən yoxlanılır. Elektron kabinetə məlumatların natamamlığı (“İnzibati icraat haqqında” Azərbaycan Respublikası Qanununun 30.5-ci maddəsinin tələbləri nəzərə alınmaqla) və ya uyğunsuzluğu barədə məlumat göndərildikdən sonra namizəd 3 (üç) iş günü ərzində onların tamlığını təmin edib təkrar elektron ərizəni təsdiqləməlidir.

5.3. Ərizəçinin müraciətinə aidiyyəti üzrə baxılır və məlumatlar öz təsdiqini tapdığı halda, elektron sənəd formasında yaradılan arayış onun elektron kabinetində yerləşdirilir.

5.4. Ərizədə göstərilən məlumatlar öz təsdiqini tapmadığı halda, arayışın verilməsindən imtina barədə qərar qəbul edilir. İmtina barədə qərar bu Qaydanın 5.8-ci bəndinə əsasən təsdiq edilir və ərizəçinin elektron kabinetində yerləşdirilir.

5.5. Arayış “Təhsil haqqında” Azərbaycan Respublikası Qanununun 27-ci maddəsinə uyğun olaraq, TMİS-ə ötürülən və TMİS-də formalaşan məlumatlar əsasında hazırlanır.

5.6. Arayışda aşağıdakılar göstərilir:

5.6.1. “Azərbaycan Respublikası” sözləri, Azərbaycan Respublikası Dövlət Gerbinin təsviri;

5.6.2. arayışın seriyası və nömrəsi (TMİS tərəfindən verilir);

5.6.3. arayışalanın soyadı, adı və atasının adı;

5.6.4. arayışalanın fərdi identifikasiya nömrəsi (olduğu halda);

5.6.5. arayışalanın (əcnəbi və vətəndaşlığı olmayan şəxslərə münasibətdə) şəxsiyyətini təsdiq edən sənədin adı, seriyası, nömrəsi, verildiyi tarix və sənədi verən orqanın adı;

5.6.6. ümumi təhsil müəssisəsinin adı;

5.6.7. təshilalma forması;

5.6.8. tədris dili;

5.6.9. arayışalanın bitirdiyi sinif və keçilmiş fənlər üzrə qiymətlər;

5.6.10. arayışalanın ümumi təhsil müəssisəsinə daxil olduğu il;

5.6.11. arayışalanın ümumi təhsil müəssisəsindən xaric olunduğu il;

5.6.12. arayışalanın ümumi təhsil müəssisəsindən xaric olunma səbəbi;

5.6.13. arayışın verildiyi tarix;

5.6.14. arayışın həqiqiliyini yoxlamaq üçün ştrix-kod.

5.7. Arayışda bütün məlumatlar Azərbaycan dilində yazılır. Arayışalanın müraciəti ilə arayış ingilis dilində də tərtib edilə bilər.

5.8. Arayış ümumi təhsil müəssisəsinin rəhbərinin təkmil sertifikatlı gücləndirilmiş elektron imzası ilə təsdiq edilir.

5.9. Arayışalan elektron kabinetində yerləşdirilən arayışı elektron qaydada tələb olunan ünvanlara göndərə və ya kağız formasında çap edə bilər.

5.10. Arayışın kağız daşıyıcıda olan surətinin təsdiqi “Notariat haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən həyata keçirilir.

5.11. Arayışın həqiqiliyi “Elektron imza və elektron sənəd haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq yoxlanıla bilər.